**Rəşad Əliyev**

# RƏSSAMIN ARZULARI

**BAKI-2026**

**Rəşad Əliyev. RƏSSAMIN ARZULARI**
Bakı, Qanun Nəşriyyatı, 2026, 108 səh.

Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 12.05.2026

Qapaq dizaynı: Sevda Zeynall
Rövşən Abbas

Kitab hazır diapozitivlərdən
Qanun Nəşriyyatında çap olunub
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-033 -9

© Rəşad Əliyev, 2026

**Niyə bu kitabı oxuyum ki ?**

Gəlin pafoslu cümlələri bir kənara ataq və bu cür izah edək: Haqqında danışacağım rəssam siz bildiyiniz digər rəssamlara bənzəmir. O da rəsmlər çəkdi. Amma şübhəsiz ən böyük əsəri “Böyük Almaniya” oldu. Deyəsən kimdən danışacağımı bir çoxunuz anladınız. Fərqindəyəm, bu insan haqqında çox əsərlər yazılıb, filmlər çəkilib. Mən belə müşahidə etmişəm ki, bu filmlərin, kitabların çoxunda rəssamın mənfi xüsusiyyətləri, qəddarlıqları ön plana çıxarılır. Bir məqamı görməzdən gəlməyək – mənimlə razılaşmayanlar olacaq, belə bir fikir ortaya qoyuram: Nə mütləq şər deyə bir məfhum mövcuddur, nə də mütləq yaxşı. Həyatda heç bir şey, bizə təqdim olunan heç nə göründüyü kimi deyil. Məhz buna görə bizə göstərilənlər, öyrədilənlər ilə kifayətlənməməli, aysberqin o gizli tərəfini görməyə cəhd etməliyik. Mənbələrə əsaslanan məlumatların öz əksini tapdığı bu kitabı oxusanız, inanın ki, çox şeylər görəcəksiniz. Gəlin sizə mövzumuzla da sıx əlaqəli bir cəhalət(deyəsən kobud səsləndi) və ya belə deyək, bir önyargı nümunəsini gözdən keçirək:

Bir çox bölgələrdə, o cümlədən  mənim də böyüdüyüm kənddə “nemes”  ifadəsi işlənir, aktuallığını qoruyur. Yəqin ki, bu ifadəni həyatında ən azı bir dəfə eşidənlər olub.

Məsələn, qoca nənə - babalardan daha çox eşitmişəm: “Sənin damarında nemes qanı axır” və ya “Sən nə nemes adammışsan”. Burada “nemes” sözü təbii ki yaxşı mənada deyil, “qəddar” anlamında işlənir. İkinci Dünya Müharibəsinin tərkib hissəsi olan Böyük Vətən Müharibəsi(1941 – 1945) zamanı alman əsgərlərinə belə deyilirdi. Əslində bu söz slavyan mənşəlidir, “yad dildə danışan”, “özgə” mənalarını verir. Necə ki Roma imperiyası ərazisinə basqınlar edən xalqları “barbar” adlandırırdılar(“barbar” – “bar”, “bar” danışan şəxs deməkdir. Yəni dediyi anlaşılmır). Yəni, “neme(t)s” sözü “qəddar” demək deyil, sadəcə slavyanlar(ruslar) bu məfhumla onları “özgə”, “özlərinə aid olmayan” adlandırıblar. Gördüyümüz kimi, xalqımızın mentalitetində, yaddaşında bu ifadə “pis kimi” iz buraxıb. Kitabı oxuyarkən şübhəyə düşsəniz, özünüz də araşdırın. Demək istəyirəm ki, yeri gəlsə mənə də inanmayın. Mən çalışdıqca obyektiv yanaşmaya üstünlük vermişəm. O zaman başlayaq.

Hitlerin doğulduğu 1889-cu ildə Almaniyanın vəziyyətini anlamaq çox vacibdir. Həmin dövrdə Avropa Birinci Dünya

Müharibəsinə doğru sürətlə sürüklənirdi. “Alman dualizmi” kimi tanınan Prussiya-Avstriya rəqabətindən Otto fon Bismarkın rəhbərliyi altındakı Prussiya qalib çıxmışdı. Artıq qarşımızda dağınıq knyazlıqlar yox, qüdrətli Alman imperiyası vardı.



Bu Vahid Almaniya dövlətinin elan edilməsi(1871 – ci il, 18 yanvar)

Yeni imperiya polad və kömür istehsalında Fransanı, hətta İngiltərəni geridə qoymuşdu. Şəhərlərini sürətlə sənayeləşdirmiş, cəmiyyətini yüksək səviyyədə savadlandırmışdı. Lakin buna baxmayaraq, Almaniya nə qədər çalışsa da İngiltərə, Fransa və Rusiyanın təmsil olunduğu “Nəhənglər Liqası”na tam inteqrasiya edə

bilmirdi. Bunun əsas səbəbi bazar və xammal qıtlığı idi. Almaniya milli birliyini çox gec təmin etdiyi üçün dünya üzrə müstəmləkələr artıq digər güclər tərəfindən bölüşdürülmüşdü. Xüsusilə İngiltərə ilə koloniyalar üstündə davamlı gərginlik yaşanırdı: Almaniya yeni ərazilər tələb edir, İngiltərə və Fransa isə buna qətiyyətlə "yox" deyirdi. Digər tərəfdən Avstriya-Macarıstan İmperiyası dağılmaq təhlükəsi ilə üz-üzə idi. Rusiya "Panslavizm" siyasəti ilə Avstriya daxilindəki milli azlıqları təhrik edirdi. Habsburq sülaləsi isə imperiyanın bütövlüyünü qorumaq üçün bu azlıqlara qarşı güzəştli siyasət yürüdür, onlara geniş hüquqlar verirdi. Bu vəziyyət imperiya daxilindəki almanları olduqca qəzəbləndirirdi. Hitlerin Linz şəhərindəki orta məktəb illərində tarix müəllimi Leopold Poeşt'in təsiri ilə millətçiliyə erkən meyil etməsi məhz bu siyasi atmosferin nəticəsi idi. Hitlerin millətçiliyi antisemitizmlə (yəhudi düşmənçiliyi) sintez etməsi dövrün reallıqlarına uyğun idi. Antisemitizm Orta əsrlərdən bəri Avropada vaxtaşırı alovlanan köklü bir stereotipə çevrilmişdi. 1700-cü illərdən etibarən genişlənən imperializm dövrü avropalılarda özlərini digər irqlərdən üstün görmə duyğusunu onsuz da formalaşdırmışdı.

Maraqlıdır ki, irqçiliyin ilk sistemli forması hələ 1500-cü illərdə Habsburq sülaləsindən olan İspaniya kralı II Filippin dövründə "piqmentologiya" (insanların dəri rənginə görə

təsnifatı) ilə ortaya çıxmışdı. II Filipp Cənubi Amerikadakı koloniyalarda insanları rənglərinə görə sinifləndirmişdi. **Yəni "ağ irqin üstünlüyü" ideyası Hitlerin kəşf etdiyi orijinal bir fikir deyildi.** Hitlerin dünyagörüşünün formalaşmasında bir neçə şəxs mühüm rol oynamışdır:

**Rixard Vaqner:** Hitler hələ doğulmamış vəfat etsə də, operalarında alman dastanlarını (saqalarını) yenidən şərh etməsi Hitleri irqçilik və antisemitizm mövzularında dərindən təsirləndirmişdi (Məsələn: *"Nibelunqların üzüyü"* silsiləsi).

**Hyuston Stüart Çemberlen:** Alman əsilli Britaniya vətəndaşı olan bu filosof iddia edirdi ki, Ari irqi Hind - Avropa mənşəlidir və ən saf nümayəndələri almanlardır. Dünyanın "Almaniya çətiri altında" birləşməli olduğunu müdafiə edirdi.

**Fridrix Nitsşe:** Nitsşenin "Tanrının ölümü" ilə birlikdə irəli sürdüyü "Üstün insan"(Übermensch) konsepsiyası Hitlerin ideologiyasına daxil oldu. Nitsşenin bu termini irqi mənada işlədib - işlətmədiyi hələ də mübahisəli olsa da, Hitler bu anlayışı Sosial Darvinizmlə birləşdirərək onu "German irqi" kimi şərh etdi. Adolf Hitler məhz belə bir ideoloji mühitdə rəssam olmaq xəyalı ilə Vyanaya yollandı. Lakin onun bu şəhərdəki uğursuzluqları — İncəsənət Akademiyasına qəbul edilməməsi, tikintilərdə çalışmaq məcburiyyətində qalması və yaşadığı səfalət —

beynindəki ksenofobiya (yadellilərə nifrət) və antisemitizm toxumlarını daha da möhkəmləndirdi. Lakin Hitler "Mənim mübarizəm" (Mein Kampf) kitabında qeyd etdiyi kimi, həmin illərdə bir çox mənfi mənzərənin də şahidi olur. 1900-cü illərin Vyanası Avropanın ən kosmopolit, yəni rəngarəng şəhərlərindən biri idi və artıq burada almanca danışanların səsi getdikcə boğulurdu. Şəhər sanki çexlər, yəhudilər, serblər və digər azlıqlar tərəfindən "işğal edilmişdi". Bu rəngarəng cəmiyyətin "qaymaq təbəqəsini" də almanlar deyil, məhz yəhudilər təşkil edirdi. Qəzetlər onların əlində idi, universitetlər yəhudi alimlərlə dolub-daşırdı, əyləncə məkanları və teatrlar da onların nəzarətində idi. Almanlar isə şəhərin mərkəzindən kənara itələnmiş, daxmalarda yaşamağa məhkum edilmişdilər. Üstəlik serb və çexlərin "ucuz işçi qüvvəsi" kimi meydana atılması almanların çörəyini əlindən alırdı. Onlar düz-əməlli iş tapmaqda belə çətinlik çəkirdilər. Hitler gündəlik fəhləlik etdiyi dövrdə marksist həmkarlar ittifaqları ilə tanış olur. Bu ittifaqlar almanlardan çox azlıqların hüquqlarını ön plana çəkir, alman fəhlələrinə isə "milliyyətsiz cəmiyyət" təbliğatı aparırdılar. Bu vəziyyət Hitlerin qanını qaraldır, onu özündən çıxarırdı. Hətta xatirələrində tikintidə marksist işçilərlə bu səbəbdən əlbəyaxa davaya çıxdığını da qeyd edir. Vyanada yaşadığı müddətdə aktiv siyasətlə maraqlanmasa da, şəhərdəki bu durumdan nə qədər

narahat olduğunu Birinci Dünya Müharibəsi başlayanda görürük. O, vətəndaşı olduğu Avstriya ordusunda deyil, qaçıb Almaniya ordusunda xidmət etməyi seçir. Öz dili ilə desək: “O ordu əsl alman ordusu deyildi.” Avstriyadakı “Xanədana sədaqət” anlayışı ilə Hitlerin alovlu alman millətçiliyi bir-birinə tamamilə zidd idi. Birinci Dünya Müharibəsində Hitler Qərb cəbhəsində düşmənlə üz-üzə, sinə-sinəyə vuruşdu. Hətta qanlı Somme döyüşlərində iştirak etdi. 16-cı Bavariya ehtiyat piyada alayı dəhşətli itkilər versə də, Hitler möcüzə nəticəsində sağ qaldı. Müharibə illəri onu qorxutmaq əvəzinə, xarakterini daha da poladlaşdırdı. Maraqlıdır ki, sonralar generallarının tez-tez şikayət etdiyi “strateji səhvləri” və hərbi mobilliyi pozan inadkar qərarları məhz onun bu səngər təcrübəsindən qaynaqlanırdı. Generalları onun “səngər psixologiyasından” qurtula bilmədiyini, statik müharibəyə (yerində mövqe tutmaq) hədsiz meyilli olduğunu deyirdilər.

Lakin müharibə bitəndə bütün alman ordusu kimi o da şok keçirirdi. Ordu hələ də ayaqda idi, resurslar tükənməmişdi, alman cəbhə xətti Berlini təhlükəyə atacaq qədər yarılmamışdı. Hitlerin və silahdaşlarının hələ də vuruşmağa gücü və iradəsi var idi. Geri döndükdə isə bir çox əsgər kimi o da mülki həyata uyğunlaşmaqda çətinlik çəkdi. Cəbhə arxasında xalqı sülhə razı salmaq üçün aparılan sosial-demokrat təbliğatı nəticəsində, xalq

mühəribənin gətirdiyi ağır yükün, türklərin dili ilə desək, “faturasını” evə qayıdan əsgərlərə kəsirdi. Küçələrdə köhnə əsgərlər təhqir olunurdu. Bu aşağılanan əsgərlər arasında “mərmi travması” (shell-shock) yaşayanlar, bədən üzvünü itirənlər və maddi sıxıntıdan küçələrə düşənlər var idi. Versal müqaviləsinin orduya qoyduğu məhdudiyyətlər on minlərlə zabiti bir gecədə işsiz qoydu. **Dörd il canını qoyub vuruşasan, geri dönəndə isə xalq sənə söyüş söysün, iş tapa bilməyəsən, hətta müharibə xatirələrini xatırlatdığın üçün kafelərə girişin qadağan olunsun......**




Üstünə bir də doğma vətəni Avstriyanın parça-parça edilməsi əlavə olunduqda, Hitler dərin bir mənəvi sarsıntı